# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

13 (108) 29 iyun 2018-ci il

İctimai-siyasi qəzet


# Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilib



***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olub.***

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda



olublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan,



Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azadlıq meydanına toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak edən şəxsi heyəti salamladı.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycan Respublikasının dövlət himnini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söylədi.

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başladı.

Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə dövlətimizin başçısının iyunun 25-də imzaladığı Sərəncamla 1-ci dərəcəli “Rəşadət” ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra qardaş Türkiyənin “Solo Türk” və “Türk Ulduzları” aviaqrupuna daxil olan 2 ədəd “F-16” və 8 ədəd “F-5” tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirdi.

Beləliklə, bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir - Müstəqillik!



AZƏRBAYCAN VETERANI

# Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik cənab Zakir Həsənova

*Hörmətli cənab Nazir!*

Bu il Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 yaşı tamam olur. Hər bir azərbaycanlı, hər bir vətənpərvər üçün əlamətdar gün olan bu bayram münasibəti ilə Sizi və Nazirliyin şəxsi heyətini səmimi qəlbdən təbrik edir, çətin və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Azərbaycan Xalq Cümhuriyyəti dövründən qurulan Silahlı Qüvvələrimiz həqiqətən şanlı, qurur doğurası tarixi yol keçib. İlk demokratik respublikasının müdafiəsindən başlanan bu yolun cığırdaşları olan insanlar çətin şəraitə baxmayaraq, qısa müddətdə həqiqətən güclü, nizami ordu yarada bilmişdilər. Son 27 ildə Silahlı Qüvvələr sıralarında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin, konstitusiya quruluşunun, ərazi bütövlüyünün müdafiəsində sayıq dayanan əsgər və zabitlər onların davamçıları olmaları ilə fəxr edə bilərlər.

Azərbaycanın bu gün müasir, güclü orduya malik olmasında həmin ənənələrin də özünəməxsus yeri vardır. Xüsusilə 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə ölkədə digər sahələrdə olduğu kimi ordu quruculuğu prosesində də tarixi varislik prinsipi əsas götürülmüşdür. Məhz bunun, həmçinin beynəlxalq təcrübənin mənimsənilməsinin nəticəsidir ki, bu gün Azərbaycan istənilən vəzifənin öhdəsindən gəlməyə qadir nizami və peşəkar Orduya malikdir. Hazırda bu proses Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.

Bu sahədə görülən işlərdə rəhbərlik etdiyiniz Nazirliyin xüsusi rolu və yeri vardır. Biz bunu yüksək qiymətləndirir və Qələbə naminə gərgin fəaliyyətinizi təqdirəlayiq hesab edirik. İnanırıq ki, Cənubi Qafqazın ən müasir və güclü ordusu olan Azərbaycan Ordusu torpaqlarımızı düşmən işğalından qurtarmağa, ölkənin ərazi bütövlüyünü bərpa etməyə tam qadirdir və həmin gün uzaqda deyil.



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Sizi və bütün şəxsi heyəti bir daha ürəkdən təbrik edir, xidməti işinizdə uğurlar, cansağlığı və ailələrinizə firəvanlıq arzulayıram.

*Hörmətlə,*
***Tofiq Ağahüseynov***
***general-polkovnik, Respublika Veteranlar Təşkilatının sədri***

## Silahlı Qüvvələrin 100 illiyi ilə bağlı parad Azərbaycan Pespublikasının hərbi qüdrətini nümayiş etdirdi

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad Ordumuzun gücünü, taktiki-texniki imkanlarını bütün dünyaya bir daha nümayiş etdirdi. Ordumuzun nəyə qadir olduğunu son iki ildə yaxşı görmüş və lazımi dərsini almış düşmən hazırda sarsılmış durumdadır.*

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradın əhəmiyyətindən danışan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib.

Cəlil Xəlilov deyib ki, paradda nümayiş etdirilən silah və hərbi texnika Azərbaycan Respublikasının hərbi gücünün tam təqdimatı deyildi. Çünki bu gün yalnız Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ümumilikdə 1200 adda hərbi təyinatlı məhsul istehsal edir. Buraya iqtisadi qüdrəti getdikcə artan, xarici əlaqələri genişlənən ölkəmizin hərbi əməkdaşlıq çərçivəsində əldə etdiyi müasir silah və texniki vasitələri də əlavə etsək, Ordumuzun imkanları barədə daha aydın təsəvvür yarana bilər. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, "Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir". Belə hərtərəfli imkanların yaradılması bir məqsədə - Azərbaycan Ordusunun döyüş qabiliyyətinin ildən-ilə yüksəldilməsinə, işğal altındakı torpaqlarımızın azad edilməsinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına xidmət edir.

"Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi ilə bağlı keçirilən hərbi parad həm də xalqımızın öz ordusu ilə haqlı yerə qürur duymasının və ona inamının real əsaslara dayanmasının təsdiqinə çevrildi. Ali Baş Komandanın diqqət və qayğısı sayəsində güclənən Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri iki il əvvəl Aprel döyüşlərində qazandıqları qələbəni ötən ay bir daha təkrarlayaraq, Naxçıvanda 11 min hektara yaxın strateji ərazini işğaldan azad etdilər. Şərur rayonunun Günnüt kəndinin, onun ətrafındakı strateji yüksəkliklərin düşmən işğalından azad edilməsi hərbi qüvvələrimiz tərəfindən İrəvan-Gorus-Laçın-Xankəndi yolunun nəzarətə götürülməsinə şərait yaradıb. Azərbaycan əsgərinin yaxın vaxtlarda ermənilərin ərazimizdə qazdıqları başqa səngərlərdə də xidmət göstərəcəklərinə hamımız inanırıq", - deyə ehtiyatda olan polkovnik vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini bildirib ki, təntənəli parad Azərbaycan Ordusunun hərbi qüdrətinin nümayişi olmaqla yanaşı, düşmənə verilən mesaj idi. Ermənilər bundan nəticə çıxarmalı, nəinki işğal altındakı Azərbaycan torpaqlarındakı, Ermənistandakı strateji hədəflərinin də məhv edilə biləcəyini başa düşməlidirlər. Xalq, Vətən qarşısındakı missiyasını ləyaqətlə yerinə yetirməkdə olan Ordumuzun istənilən vəzifəni icra etməyə qadir olduğunu düşmən də yaxşı bilir. Bunu nə qədər tez etiraf edib lazımi addımları atsalar, özlərini gələcək sarsıntılardan bir o qədər tez xilas edərlər. Hərbi paradın ən mühüm nəticəsi Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının xalqımıza və dünyaya çatdırılan mesajında tam dolğunluğu ilə ifadə edilib. "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". Yüksək səviyyədə hazırlanaraq keçirilən hərbi parad o günün uzaqda olmadığının ən parlaq nümayişidir.

## Respublika Veteranlar Təşkilatında Çexiya Respublikasının səfiri ilə görüş keçirilmişdir

13 iyun 2018-ci ildə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Çexiya Respublikasının Azərbaycan Respublikasındakı səfiri cənab Petr Vaqnerlə görüş keçirilmişdir. Görüşdə səfir cənab Petr Vaqnerlə birlikdə Çexiya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin əməkdaşları Jan Havliçek və Petr Vaqner iştirak etmişlər.

Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov Çexiya Respublikasının səfiri cənab Petr Vaqnerlə son iki ayda ikinci dəfə görüşün baş tutmasından məmnun qaldığını bildirərək qonaqlara Azərbaycanın İkinci dünya müharibəsində iştirakı, Təşkilatın fəaliyyəti, ölkəmizdə veteranlara dövlət tərəfindən göstərilən qayğı barədə ətraflı məlumat vermişdir. O, həmçinin Çexiyanın alman faşizmindən azad edilməsi uğrunda gedən döyüşlərdə soydaşlarımızın göstərdikləri qəhrəmanlıqları bir daha xatırlatmış, Çexiya və Azərbaycan veteran təşkilatları arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün belə görüşlərin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır.



Görüş iştirakçılarına milli Azərbaycan diviziyalarının zəfər yolu barədə geniş məlumat verən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Çexoslovakiya ərazisində, xüsusilə Praqa şəhəri uğrunda gedən döyüşlərdə həmyerlilərimizin göstərdikləri şücaətdən bəhs etmişdir. O, İkinci dünya müharibəsi cəbhələrində 30 ay fasiləsiz döyüşlər aparmış, Qırmızı Bayraq və II dərəcəli Suvorov ordenləri ilə təltif edilmiş 416-cı milli diviziyanın Bakıdan Praqaya qədər 5000 km. döyüş yolu qət edərək, Çexoslovakiya ilə yanaşı, daha 5 Avropa ölkəsinin – Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriyanın faşizmdən azad edilməsindəki iştirakından danışmışdır. Qonaqlara 223-cü milli atıcı diviziyanın 1942-ci ilin yayında Şimali Qafqazdan başlayan döyüş yolunun Ukrayna, Moldova, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriyadan keçməsi, diviziyanın 1945-ci il mayın 9-da Çexoslovakiyaya daxil olması, həmçinin Çexoslavakiyanın azadlığı uğrunda döyüşlərdə fərqlənmiş 77-ci Azərbaycan diviziyası barədə də məlumat vermişdir.

Daha sonra Çexiya səfirinə hazırda həmin döyüşlərin iştirakçısı olmuş 8 nəfər azərbaycanlının həyatda olması, onların digər müharibə veteranları ilə bərabər hərtərəfli qayğı və diqqətlə əhatə edildikləri çatdırılmışdır.

Səfir Petr Vaqner Respublika Veteranlar Təşkilatının sədrinə və sədr müavininə ətraflı məlumatlara görə öz minnətdarlığını etmiş, Azərbaycan Respublikasının dövlət orqanları və ictimai təşkilatları ilə Çexiyanın müvafiq qurumlarının qarşılıqlı əməkdaşlığının faydalı olduğunu bildirmişdir. O, Çexiyanın alman faşizmindən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş bütün insanların xatirəsinin çex xalqı üçün daim əziz olduğunu xüsusi vurğulayaraq, həmin qanlı döyüşlərin sağ qalan iştirakçılarına Çexiya Respublikası adından hədiyyələr və medallar təqdim etmişdir. Səfir İkinci dünya müharibəsində Çexoslavakiyanın alman faşizmindən azad edilməsi uğrunda gedən döyüşlərdə azərbaycanlıların iştirakı barədə müvafiq məlumatlandırma işlərinin aparılmasının və onların xatirəsinin əbədiləşdirilməsinin vacib olduğunu bildurmişdir. Səfir həmçinin hər iki ölkənin veteran təşkilatları arasında daha sıx əlaqələrin qurulmasının vacibliyini və bu sahədə lazımi köməklik göstərməyə hazır olduqlarını qeyd etmişdir.

Görüşün sonunda xatirə şəkilləri çəkilmişdir.

# Veteranlar ordumuza inanır və həmişə onun yanındadır

## Respublika Veteranları Təşkilatında Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi qeyd olunub



İyunun 22-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov çıxış edərək Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması, eləcə də 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi barədə sərəncamlarının əhəmiyyətini xüsusi vurğulayıb. Qeyd edib ki, bu mühüm sənədlər həmin dövrdəki tarixi hadisələrin, o cümlədən hərb tariximizin, qazanılan nailiyyətlərin gənclərimizə çatdırılması və öyrədilməsi baxımından böyük önəm daşıyır.

Azərbaycan Silahlı Qüvvələrinin yaradılması tarixindən danışan Tofiq Ağahüseynov deyib ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinin qərarına əsasən, 1918-ci il iyunun 26-da birinci nizami hərbi hissə - əlahiddə Azərbaycan korpusu, avqustun 1-də isə Xosrov bəy Sultanovun rəhbərliyi ilə Hərbi Nazirlik yaradıldı. Qısa müddətdə Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi, ordumuz Qarabağda ermənilərlə döyüşdə böyük uğurlar qazandı.



T.Ağahüseynov əlamətdar yubiley münasibətilə tədbir iştirakçılarını təbrik edib və hazırda bölgənin ən güclü ordusu olan Azərbaycan Silahlı Qüvvələrinə yeni qələbələr arzulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək deyib ki, Azərbaycan Prezidentinin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, hər il iyunun 26-sı ölkəmizdə Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü kimi qeyd olunur. Azərbaycan oğulları nəyə qadir olduqlarını İkinci Dünya müharibəsində alman faşizminə qarşı döyüşlərdə də nümayiş etdiriblər. Cəbhəyə yola salınan 700 min azərbaycanlı mərdliklə vuruşaraq bəşəriyyəti faşizm taunundan xilas edib. 124 həmvətənimiz Sovet İttifaqı Qəhrəmanı adına, minlərlə azərbaycanlı orden və medallara layiq görülüb.

Vurğulanıb ki, hələ sovet dövründə milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev 1970-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyinin təşkilinə nail olub. Ulu Öndər azərbaycanlı gənclərin SSRİ-nin ixtisaslaşdırılmış hərbi məktəblərində təhsil almasına da çalışırdı. O dövrdə ali hərbi məktəbləri bitirmiş zabitlər müstəqilliyin bərpasından sonra müasir Azərbaycanın Silahlı Qüvvələrinin formalaşmasında müstəsna rol oynadılar. Bu məktəblərin məzunları habelə erməni təcavüzkarlarına qarşı döyüşlərdə mərdliklə vuruşdular.



C.Xəlilov deyib: "Hazırda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Müasir və qüdrətli ordumuz Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı ərazilərimizi azad etməyə qadirdir. 2016-cı ilin aprel döyüşləri Silahlı Qüvvələrimizin gücünü, döyüş qabiliyyətini və əzmini aydın nümayiş etdirdi. Biz veteranlar ordumuza inanırıq və həmişə onun yanındayıq".

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev tədbirdə çıxış edərək tədbir iştirakçılarını Azərbaycan Xalq Cümhuriyyətinin və milli ordumuzun yaradılmasının 100 illiyi münasibətilə təbrik edib.

Vurğulanıb ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Azərbaycan Xalq Cümhuriyyəti bizə böyük miras qoyub. Bunlardan biri də Azərbaycan milli ordusudur.

Milli ordumuzun yaranması tarixindən danışan Ərəstun Mehdiyev deyib: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini quranlar çətin vəzifə ilə üzləmişdilər. Qarşıda duran dövlət quruculuğu məsələlərini həyata keçirmək üçün əsas dövlət atributlarından biri olan milli ordunun mövcudluğu çox böyük əhəmiyyət kəsb edirdi. Lakin o dövrdə yenicə yaranmaqda olan, qeyri-sabit ictimai-siyasi mühitdə formalaşan dövlətin bu vəzifəni həll etməsi çox çətin idi. Bunu çətinləşdirən əsas amillərdən biri də o idi ki, ordu quruculuğu sahəsində fəaliyyət göstərəcək ixtisaslı kadrlar çatışmırdı".

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının qərarı ilə vaxtilə çar Rusiyasının görkəmli sərkərdələrindən biri olmuş Əliağa Şıxlinskinin rəhbərik etdiyi korpus əsasında Əlahiddə Azərbaycan korpusu yaradıldı. Dövrün çətinliklərinə baxmayaraq, ordu quruculuğu sahəsində aparılan ardıcıl tədbirlər Azərbaycan ordusunun Cümhuriyyətin qarşısında duran əsas vəzifələrin həlli proseslərinə cəlb olunmasına və çox böyük işlər görməsinə imkan yaratdı.



“Həmin dövrdə ordunun inkişaf etməsi və qarşıdan duran vəzifələrin həlli üçün çox böyük səylər göstərilirdi. Vəziyyətin mürəkkəbliyinə baxmayaraq, ordu quruculuğu prosesində bir çox nailiyyətlər əldə olundu. O dövrdə qazanılan ənənələr və hərbi təcrübə sonrakı illərdə də mühüm rol oynadı. Biz məhz bu təcrübədən bəhrələnərək ordu quruculuğu sahəsində böyük vəzifələrin həllinə nail ola bildik”, - deyə Ə.Mehdiyev vurğulayıb.



Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini vaxtilə ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı hərbi məktəblərin, o cümlədən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif ali hərbi məktəblərində təhsil almasının əhəmiyyətindən söz açıb. Qeyd edib ki, bütün bunlar dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə milli ordunun formalaşmasında önəmli rol oynadı. Bu gün Heydər Əliyevin siyasətini davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu dünyanın ən güclü, müasir, mənəvi-psixoloji cəhətdən hazırlıqlı orduları səviyyəsinə yüksəlib. Dövlətimizin və xalqımızın birgə səyləri ilə yaradılmış bu güclü ordu qarşımızda duran əsas vəzifənin həllinə - torpaqlarımızın düşmən işğalından azad olunmasına tam zəmanət verir.



Son dövrdə Azərbaycan ordusunda çox böyük dəyişikliklər baş verdiyini diqqət çatdıran Ə.Mehdiyev deyib: “Azərbaycan əsgərinin gücünü Aprel döyüşləri də aydın şəkildə göstərdi. Biz böyük qürur duyuruq ki, bugünkü Azərbaycan gənci ordu sıralarında xidmətə çox böyük həvəslə gedir, Vətəni və xalqı qarşısında vəzifəsini şərəflə yerinə yetirir. Son günlər Naxçıvanda keçirilən əməliyyat bir daha təsdiqlədi ki, Azərbaycan əsgəri istənilən an torpaqlarımızı düşməndən azad etməyə qadirdir”.

Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Bədirxan Əhmədov, Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev, veteranlardan general-mayor Vladimir Timoşenko və başqaları çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin keçdiyi şərəfli tarixi yoldan, Azərbaycan əsgərlərinin qəhrəmanlıqlarından, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində görülən işlərdən, ordumuzun sön dövrlərdə qazandığı uğurlardan, veteranların ordumuzun formalaşmasında verdiyi töhfələrdən danışıblar.




Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin mahnı və rəqs ansamblının konsert proqramı ilə davam edib.

# "Artilleriyanın Allahı" - Əliağa Şıxlinski



***"Sizə tam artilleriya generalı böyük hərbi mütəxəssis Əliağa Şıxlinskini həbs edib ÜFK-nın Qafqaz idarəsinin istənilən şöbəsi vasitəsilə Moskvaya göndərməyi təklif edirəm".***

Hərbi İnqilabi Şuranın üzvlərindən birinin 11-ci ordunun Xüsusi şöbəsinin rəisi Pankratova 10 may 1920-ci il, 382 saylı bu müraciəti məmnuniyyətlə yerinə yetirildi. "Böyük hərbi mütəxəssis olduğu etiraf edilən general Əliağa Şıxlinski həmin günlərdə qırmızı ordunu onun kimi nadir hərbi dühaların köməyi ilə nizami qoşun hissəsinə çevirməyə çalışan bolşeviklər tərəfindən həbsə alındı və Azərbaycanın böyük sərkərdəsi, müstəqil dövlətin müdafiə naziri olmuş tam artilleriya generalı Səməd bəy Mehmandarovla birlikdə Moskvaya göndərildi.

Ancaq bu iki müxtəlif hadisənin baş verdiyi zaman kəsiyində onu sovet hakimiyyəti əleyhinə əksinqilabi fəaliyyətdə, Gəncə qiyamında iştirakda suçlayaraq, istintaq altında saxladılar. 55 yaşlı general həbsxana şəraitində komandanlığında çavuş olmağa ləyaqəti çatmayan dünənki qaragüruh nümayəndələri tərəfindən heysiyyatına toxunan sorğu-suala tutuldu.

Belə günlərdən biri. 1920-ci ilin 31 mayı. İstintaq-arxiv işindəki həmin tarixdə tərtib edilmiş Protokoldan aydın olur ki, Əliağa Şıxlinski may ayının 31-də işlə bağlı şahid qismində dindirilib: "Çevrilişdən sonra Gəncə ilə danışıqlar aparılırdı. İnqilabi Komitə məsələyə kəskin yanaşırdı, onlar tərəfindən əmr olunmuşdu ki, telefon vasitəsilə əməliyyat göstərişləri verilməsin. Danışıqları diviziya komandiri C.Şıxlinski və onun adyutantı Əfəndiyev aparırdı. Mən C.Şıxlinski ilə bir dəfə şəxsi məsələmə görə (24.05) söhbət etdim. O soruşdu ki, nə vaxta qədər ehtiyata təyin edilib. Bilmək istəyirdi əşyalarını Gəncədə qoysun, yoxsa özü ilə götürsün. Novruzov çevrilişdən bir neçə gün sonra raport yazmışdı. Ona getməyə icazə verildi. C.Şıxlinski telefonla məlumat verdi ki, gürcü zabitlər istefa veriblər və İvorin bütün gürcüləri həbs etmək göstərişi verib. Sonra da bütün zabitlərə elan edib ki, kim xidmət etmək istəmirsə, qoy silahını qoyub getsin... Bizə İrəvandan xəbər verdilər ki, əvvəl diplomatik nümayəndə (Haqverdiyev), sonra parlament üzvləri Camalbəy Qasımbəyov və Kazımbəyov bizdə Qərargahda Şıxlinski, Şahtaxtınksi, Qədimov və familyalarının müəyyənləşdirilməsi mümkün olmayan üç rus satqın var..."

Azərbaycanda milli ordu quruculuğunda böyük xidmətlər göstərməsindən başqa general daha hansı "günahlar"ın sahibi idi. Bolşevik orqanının tam məxfi qrifli "Agentura məlumatından çıxarışı"nda bu "günahlar belə sıralanıb: "tam artilleriya generalı, hazırda Az. SSR hərbi-dəniz komissarının müavini Əliağa Şıxlınski:

1)1917-1918-ci illərdə sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün hərbi hissələr yaratmaqda fəal iştirak etməkdə;

2)1920-ci ildə qırmızı orduya qarşı cəbhə yaradılmasında ciddi cəhd göstərməkdə;

3)Fürsətdən istifadə edərək hərbi-dəniz komissarının etimadını qazanmış, fəhlə-kəndli hakimiyyətinin Gəncə və Gürcüstandakı düşmənləri ilə gizli əlaqə saxlamaqda davam etməkdə;

4)Sovet hakimiyyətinə rəğbət göstərən bütün Azərbaycan zabitlərinin həbs almaqda və həbs edilməsinə yardım etməkdə;

5)15-17 mayda çevrilişdən sonra çox mühüm əhəmiyyətə malik olan Könüllü ordu sənədlərinin məhv edilməsində iştirak etməkdə;

6) Mayın 25-də Gəncədəki üsyan barəsində xəbəri olmaqda və onun təşkilatçıları ilə əlaqəsi saxlamaqda ittiham olunmuşdur.

Bu ittihamların hər biri qaniçən rejim qullarının fikirləşmədən istənilən şəxsi divara dayayıb güllələməsi üçün kifayət edərdi. 1917-1918-ci illərdə sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün hərbi hissələr yaratması və 1920-ci ilin aprel çevrilişi ərəfəsində qırmızı ordunun Azərbaycana müdaxiləsinin dayandırılması istiqamətində işlər görülməsi kimi bu gün hər bir vətənpərvərdə qürur hissi doğuran, generala bəslənən məhəbbəti qat-qat artıran ittihamlar isə nəinki müttəhimin özünün, bütün nəslinin məhv edilməsi üçün yetərli idi. Sovet hakimiyyətinin düşməni sayılmaqdan, qırmızı orduya qarşı çıxmaqdan daha dəhşətli bir günah ola bilərdimi? Əsla təsadüfi deyildi ki, generalın bu sahədəki fəaliyyətinin aşkarlanması və dəqiqləşdirilməsi məsələsini Az.FK-nın sədri Pankratov kimsəyə etibar etməmiş, özü üzərinə götürmüşdü.

Həmin Protokol bu sözlərlə başlayır: "1920-ci il iyun ayının 1-də mən, Azərbaycan Fövqəladə Komissiyasının sədri Pankratov tərəfimdən həbs edilmiş general Şıxlınski dindirildi.

Şıxlinski bəyan etdi ki, hələ Qırmızı Ordunun gəlişindən əvvəl Azərbaycan hüdudlarında Yusifbəyov hökuməti tərəfindən sərhədlərin hər hansı qoşun, o cümlədən Qırmızı ordunun müdaxiləsindən qorunması barədə qərar qəbul edilmişdi. Ancaq Qırmızı orduya qarşı çıxmağa silah və əsgəri güc kifayət etmədiyi və mümkün olmadığı üçün parlament iclasında vətəndaş müharibəsinin qarşısının alınması məsələsi qoyulmuşdu. Bu məsələnin müzakirəsi zamanı aydın oldu ki, kommunist fraksiyasından başqa parlamentin heç bir fraksiyası öz üzərinə Azərbaycanda kortəbii hərəkətlərin qarşısını almağı götürmədi. Onlar öz ultimatumlarında hakimiyyəti təhvil verməyi tələb etdilər. Azadlığına təminat alan hökumət (bolşeviklərin təminatı bütün milli hökumət üzvlərinin, o cümlədən general Əliağa Şıxlinskinin repressiyaya məruz qalmaları oldu) öz səlahiyyətlərindən əl götürüb bu səlahiyyətləri kommunistlərə verdi. Azərbaycanın müdafiəsi məsələsi hökumətdə dəfələrlə qaldırılmışdı. Ancaq sonuncu dəfə bu məsələ silahın çatışmaması və dəniz qüvvələrinin olmamasına görə çətinləşmişdi. İngiltərəyə göndərilən sorğuya cavab alınmışdı ki, Azərbaycan hökumətində qalmış silah ehtiyatı, onun say tərkibi və zəruri tələbatı barədə məlumat verilsin. Uzun cəhdlərdən sonra qırmızı ordunun Qafqaza irəliləməsinin dayandırılması fikrinə gəlindiyi üçün Antanta Azərbaycan hökumətinə zəruri silahları vermək qərarına gəldi. Bü vəd sadə bir səbəbə görə - qırmızı ordunun təcili hərəkəti ilə yerinə yetirilməmiş qaldı.

Azərbaycan hökumətinin Dağıstan tərəfdən sərhədi möhkəmləndirməsi, yaxud Sovet Rusiyası ilə əlaqə yarandıqda sərhədlərlə bağlı müqavilə şərtlərinin yerinə yetirilməsinə çalışılması qəribə mövqe nümayiş etdirməkdən başqa bir şey olmazdı. Hələ Könüllü ordunun tərksilah edilməsi və silahın alınması zamanı hökumətdə tərksilah edilmiş zabitlərdən istifadə olunması fikri yaranmışdı. Bu barədə rəsmi qərar yox idi, ancaq məsələ özlüyündə həll edilmişdi. Hərbi nazirlik onları qəbul etməmişdi, ancaq hökumət tərəfindən bir neçə vədə əsasən bəzi adamlar qəbul edildilər, baxmayaraq ki, rəsmi şəkildə Azərbaycan ordusunun tərkibinə daxil olmadılar. Polkovnik Qluxaryev və yüngül top bateriyasında xidmət edən digər zabitlərlə də belə oldu. Bu batereya mümkün olduğu halda bolşeviklərin çıxışlarının qarşısını almaq üçün ezam olunmuşdu...

Ancaq çevriliş yolu ilə hakimiyyəti ələ keçirmiş bolşeviklər ona ciddi ehtiyac duyduqları üçün həbs olunmasına baxmayaraq, generalı ən azı müyyən müddət başqa milli hökumət üzvlərinin taleyinə yazılmış amansız qərar gözləmirdi. Onun xeyrinə olan digər, əsasən subyektiv amillər də vardı. Bunlar arasında generalın N.Nərimanov kimi himayədarının olmasını, onun çevrilişdən az sonra Ç.İldırım kimi nüfuz sahbi ilə bir yerdə işləməsini və s. əlaqələrini göstərmək mümkündür. Ona qarşı irəli sürülən son dərəcə ağır ittihamlara baxmayaraq, sağ saxlanılması və mərkəzə xüsusi məqsədlə yola salınmasının bizə məlum olmayan digər səbəblərinin mümkünlüyünə şübhə ilə yanaşsaq da, bunu tamamilə istisna da etmirik.

Yəqin yuxarıda sadaladığımız amillərlə əlaqədar idi ki, onun verdiyi ifadədə özünümüdafiə çalarlarından daha çox arxayınçılıq, sanki nəyəsə ümidli olması görünməkdədir: "...Həmin batereyanı hərbi məktəbə qarnizon komandirinin müavini general Usubbəyov yerləşdirmişdi. Bu sahədə keçirilən bütün tədbirlərdən onun sözsüz xəbəri olmalı idi. Gürcü zabitləri barədə nə qədər düzgün məlumatlandırılmışam, bilmirəm. Cavan Şıxlinski tərəfindən İnqilabi Komitəyə hərbi komissar Çigiz İldırıma telefonla məlumat verilmişdi ki, gürcü zabitləri istefa vermişlər və İldırımın əmri ilə zabitlər həbs olunmuşlar. Bu əmr İldırımın Hüseynovla və başqaları ilə məsələnin müzakirəsi nəticəsində qəbul edilmişdi. Bu müzakirələrdə mən iştirak etmədim, ancaq o zaman təsadüfən İnqilabi Komitədə olmuşdum. Mənim fikrim belə idi ki, onları mane olan şəxslər kimi təcrid etmək, bununla da təhlükəni aradan qaldırmaq lazımdır. Hərbi komissarlıqda olan əsgərlər tərəfindən gəmidən tapılmış sənədləri müəyyən etmək üçün mən Qaytabaşıya tapşırıq verdim və indi hərbi komissarlığın kvartirmeystr şöbəsində xidmət edən podporuçik Qulubəyovu ona köməkçi təyin etdim. Bu sənədlər Denikin ordusunun Azərbaycanda casusluq fəaliyyətinin açılması baxımından əhəmiyyət kəsb edirdi. Orada bu sahədə iş görmüş çoxlu adamların soyadları vardı və həmin adlar barəsində məndən başqa Qaytabaşı, Karqanteli və Qulubəyov da bilirdilər. General Mehmandarov da bilirdi. Bu sənədlərin sonrakı taleyi belədir - mənim göstərişimlə onlar məhkəmə şöbəsinə verilməli idi, ancaq sonradan general Qaytabaşı mənə məruzə etdi ki, sənədlər Fövqəladə Komissiyaya verilib. Sənədlərin sonrakı taleyi mənə məlum deyil. Həmin casuslara gəlincə, onlar arasında Mazayev və daha iki nəfər var idi, hər üçü mənim tərəfimdən həbs olunub və komendantlıqda həbsdə saxlanırdılar□

1-ci Tatar, 2-ci Qarabağ qoşunlarının və 3-cü Şəmkir alayının Gürcüstan cəbhəsinə atılmasına gəlincə heç nə deyə bilmərəm, çünki bunların heç biri ilə bağlı mən əmr verməmişəm. Mən ancaq demişəm ki, əgər köməklik göstərmək mümkündürsə, bunu yaxın olduğu üçün güman ki, Gəncədən etmək olar. Ancaq mən eyni zamanda demişəm ki, bu təhlükəlidir, çünki erməni sərhədi ilə yaxındır və Gəncə üçün təhlükə yarana bilər... 1 iyun 1920-ci il Ə.Şıxlınski."

"Elm" nəşriyyatının 1997-ci il tarixli məcmuəsində Əliağa İsmayıl oğlu Şıxlinskinin (1865-1943) qısa tərcümeyi-hal qeydlərində yazılır: "Tiflis hərbi gimnaziyasını və Mixaylovski artilleriya məktəbini (Peterburq) bitirmişdir. Rus-yapon müharibəsinin (1904-1905) iştirakçısı, Port-Arturun müdafiəsində batareyaya komandirlik etmişdir. Döyüş ordenləri ilə təltif olunmuşdur. Çarskoselsk artilleriya məktəbində oxumuş və burada dərs demişdir (1906). 1910-cu ildən etibarən artilleriya diviziyasının komandiri olmuş, sonra yenidən pedoqoji fəaliyyətə qayıtmışdır. Birinci dünya müharibəsinin iştirakçısı kimi müxtəlif komandir vəzifələrində olmuşdur. 1914-cü ildə general-mayor, 1917-ci ildə general-leytenant rütbəsi almışdır. 1917-ci ilin noyabrında istefaya çıxmışdır. Həmin il noyabrın 15-də Qafqaza qayıdararaq bir ay sonra Azərbaycan korpusunu formalaşdırmağa başlamışdır. Zaqafqaziya Komissarlığının sədri 11 dekabr 1917-ci ildə F.X.Xoyskinin 1917-ci il noyabrında hazırladığı qətnamə layihəsi əsasında "Zaqafqaziya Müsəlman kol ordusu təşkil etmək haqqında" 7 bəndlik qətnamə qəbul etmişdi. Həmin qətnaməyə əsasən dekabrın 19-da 5 və 7-ci Qafqaz nişançı firqələrindən ibarət olan 6-cı ordu korpusunun müsəlman Korpusu (qol ordu) ilə əvəz edilməsi barədə Qafqaz cəbhəsi qoşunlarının baş komandanı tərəfindən əmr verilmiş, komplektləşdiriləcək Korpusun komandiri vəzifəsinə general-leytenant Əlağa Şıxlinski təyin edilmişdi.

Azərbaycanlılardan ibarət olan bu korpusun yaradılmsı ilə Azərbaycan Xalq Cümhuriyyəti Silahlı Qüvvələrinin bünövrəsi qoyulmuşdur. Ə.Şıxlinski "Xatirələrim" memuarında bu barədə yazırdı: "Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olduğu barədə əmri oxudum. Öz xalqımın, baş verə biləcək xarici təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım... Dekabrın otuz birində mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul olum".

Azərbaycan hökumətində hərbi nazirin müavini vəzifəsi postunu tutmuşdur. 1919-cu ilin iyulunda tam artilleriya general rütbəsi verilmişdir. 1920-cu il 9 martda ilk dəfə onun təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyəti Silahlı Qüvvələrində Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis olunmuşdur. 1920-ci iln avqustunda N.Nərimanovun təklifi ilə S.Mehmandarovla birlikdə Moskvaya göndərilmişdir. 1921-ci ilin payızından Bakıda olmuşdur. Hərbi məktəbdə dərs demişdir. "Qısa rus-türk hərbi lüğəti"ni (1926) tərtib etmişdir.

Əliağa Şıxlinski rus-yapon və birinci dünya müharibəsi cəbhələrində sərkərdəlik qabiliyyəti və rəşadət nümayiş etdirmiş bir hərbçi idi. Onun döyüşlərdə göstərdiyi böyük şücaət qeyri-millətlər, o cümlədən ruslar tərəfindən dəfələrlə etiraf olunmuş, təkcə Port-Arturun müdafiəsinə görə 6 orden almışdır. O, qazandığı xidməti uğurlara və döyüş əməliyyatlarında göstərdiyi komandirlik məharətinə görə, həmçinin "İgidliyə görə" sözləri yazılmış qılınc, 4-cü dərəcəli Anna ordeni, Qızıl qılınc nişanı, qılınc və bantla birgə Vladimir ordeni, üzərində "İgidliyə görə" sözləri yazılmış qızıl silah və Georgi ordeninin 4-cü dərəcəsi ilə təltif olunmuşdur. 1908-ci ilin noyabr ayının 25-də ona vaxtından qabaq polkovnik hərbi rütbəsi verilərkən əla xidmət göstərdiyi xüsusi vurğulanmışdı.

Port-Artur döyüşlərinin şahidləri rus yazıçıları - Aleksandr Stepanovun "Port-Artur" və "Zvonaryovlar", Trofim Borisovun "Port-Arturçular" romanlarında Əliağa Şıxlınski və Mehmandarovun qəhrəmanlıqları barədə böyük hərarət və məhəbbətlə söhbət açılıb.

Təsadüfi deyildi ki, çarizmin süqutundan sonra Cənubi Qafqazın idarəçiliyi məqsədilə yaradılmış Zaqafqaziya Komissarlığı azərbaycanlılardan ibarət ilk hərbi birləşmənin komplektləşdirilməsi vəzifəsini general-leytenant Əlağa Şıxlinskiyə həvalə etmişdi. Komissarlığın 1917-ci il dekabrın 11-də verdiyi dekretə əsasən yaradılacaq Müsəlman Korpusunun komandiri təyin olunması bu böyük insan və həqiqi sərkərdənin Azərbaycan Silahlı Qüvvələrinin təşkili sahəsində gələcək fəaliyyətinin başlanğıcı idi. Korpusun qərargahı Tiflisdə yerləşdiyindən 1917-ci ilin dekabrı, 1918-ci ilin əvvəllərində onun təşkili ilə bağlı bütün işlərə bu şəhərdən rəhbərlik edilirdi. Korpusun qərargahına aşağıdakı struktur bölmələr daxil idi: ümumi qərargah, ləvazimat rəisi xidməti, topçu müfəttişi xidməti, istehkam rəisi xidməti, oberkvartirmeyster xidməti, növbətçi zabit şöbəsi, tibb xidməti və baytar həkimi xidməti.

Əliağa Şıxlinskinin mili Silahlı Qüvvələrimizin formalaşmasındakı xidmətlərindən daha bir yarpaq. Müsəlman Korpusunun təşkilində çətinliklərdən biri də aşağı rütbəli milli zabitlərin çatışmaması ilə əlaqədar idi. Bu problemin aradan qaldırılmasına çalışan Korpus komandanlığı çıxış yolu kimi Bakıda aşağı rütbəli milli zabit kadrları hazırlayacaq hərbi məktəbin açılması məsələsini qaldırmışdı. Həmin məqsədlə Korpusun komandiri Ə.Şıxlinski və qərargah rəisi polkovnik Mençukov 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsi qoşunlarının Baş komandanına raportla müraciət etmiş, Bakıda 1-ci Müsəlman diviziyasının nəzdində milli hərbiyyə məktəbinin açılmasına razılıq verilməsini xahiş etmişdilər. Qafqaz cəbhəsi qoşunları baş komandanlığının raporta müsbət cavabına, belə bir hərbi məktəbin açılmasını məqsəduyğun saymasına baxmayaraq, təşkilati məsələlərin uzanması və bölgədə baş verən hərbi-siyasi proseslər nəticəsində milli hərbiyyə məktəbinin fəaliyyətə başlaması yalnız Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra mümkün oldu.

Əliağa Şıxlinskinin bilavasitə müstəqillik dövründə Azərbaycanda hərbi nazirliyin və milli ordunun təşkilində göstərdiyi xidmətlər barədə də çox yazılıb. Uzun müddət hərbi nazirin müavini olmuş məşhur general gənc dövlətin etibarlı müdafiəsi ilə bağlı məsələlərin həllində yorulmaq bilmədən çalışmış, Azərbaycan ordusunu yüksək döyüş qabiliyyətinə malik səviyyəyə çatdırılmasında şəxsi təcrübəsini, bütün biliyini və səyini əsirgəməmiş, gələcək hərbi kadrların və mütəxəssislərin hazırlanmasını da unutmamışdır. Hərbi nazirliyin müvafiq strukturlarının formalaşdırılması kimi son dərəcə mühüm iş Səməd bəylə yanaşı, həmçinin onun şəxsi qayğısı və gündəlik nəzarəti altında həyata keçirilmiş, artıq 1919-cu ilin ikinci yarısında bu hərbi qurum nəinki həmin, hətta hazırkı dövrün tələblərinə tam cavab verən bir orqana çevrilmişdi. Ə.Şıxlinskinin hökumətin bütün dairələrində, ölkə rəhbərliyi səviyyəsində nüfuz sahibi olması yalnız bu fəaliyyətinin deyil, həmçinin onun istənilən məsələyə ümumdövlət mənafeyindən yanaşmasının, Azərbaycan naminə kimsəyə güzəştə getməməsinin nəticəsi idi. Ancaq o, bəzən belə yüksək hörmət və nüfuz sahibi olmasından başağrısı da çəkib, əsəb və gərginlik də keçirib. Arxiv-istintaq işində saxlanılan sənədlərdən biri buna şahidlik edir. Ə.Şıxlınski hökumət səviyyəsində söz sahibi olmasından narahatlıq keçirən şəxslərin yaydıqları şayiələrə cavab olaraq Qazax general-qubernatoru Əmir Xan Xoyskiyə yazırdı:

"Əziz Əmir Xan" Qəzetdə təqribən aşağıdakı məzmunda material gedib: "Qazaxdan provakasiya xarakterli şayiələr eşidilir ki, guya general Əliağa Şıxlinski, doktor Qarabəyov və Qarabağ general-qubernatoru hakimiyyəti ələ keçirmək üçün hərbi çevriliş etmək barədə düşnürlər...

Sorğular göstərdi ki, bu barədə Siz, Ömər Faiq Əfəndi və Parlamentin üzvü Mustafa Vəkilovla danışmısınız. Siz özünüz bilirsiniz yüksək hərbi mənsəbli hərbi adam üçün belə sui-qəsdlərdə iştirak etmək necə ağır cinayətdir. Cəmi bir dəfə mənə Sizi görmək nəsib olub və mən əminəm ki, tutarlı əsas olmadan Siz mənə qarşı belə ittiham irəli sürməzdiniz: görünür, Siz özünüz bu barədə etibar etdiyiniz adamdan eşitmisiniz. Sizdən xahiş edirəm təcili surətdə mənə, Sizə tendensiyalı, tamamilə yalan xəbəri kimin dediyi barədə məlumat verəsiniz, bununla mən özümə qarşı qərəzli böhtanın kökünü kəsə və günahkarı məsuliyyətə cəlb etdirə bilərəm. Sizə hörmət edən Ə.Şıxlinski".

Ə.Şıxlinski Azərbaycanda zabit kadrlarının çatışmadığı bir dövrdə keçmiş çar ordusunda xidmət etmiş azərbaycanlıların, xüsusilə zabitlərin vətənə qayıtmaları və milli hərbi hissələrdə yerləşdirilmələri ilə bağlı az iş görməmişdir. O, nəinki azərbaycanlıların, hətta vaxtilə hərbi qulluq illərindən yaxşı tanıdığı bir sıra digər xalqların nümayəndələrinin hərbi quruculuq proseslərinə cəlb edilmələri üçün şərait yaratmışdır. Əmir Xan Aşağıdakı məktub məhz onun belə xeyirxahlıqlar göstərməsindən xəbər verən daha bir sənəddir.

"Çox hörmətli Əliağa! Mən bu gün keçmiş rus ordusundan xidmət yoldaşım və dostum tam artilleriya generalı Mehmandarova məktub yazdım. Əliağa sənə qarşı da eyni hisslərlə müraciət edirəm, mənə Azərbaycan ordusunda hansısa vəzifə verəsiniz. Mən Könüllü orduda kiçik bir vəzifə - kazak briqadasının komandiri vəzifəsi tuturdum. Mən ailəmi dolandırmaq naminə hər cür vəzifə ilə kifayətlənərəm. Siz bilirsiniz mən hər cür vəzifənin öhdəsindən gələ bilərəm və Azərbaycan Respublikasına sədaqətlə xidmət edəcəyim barədə and içə bilərəm. Həyat yoldaşım və qızlarım Vera və Nadejda Sizə, Əliağa və həyat yoldaşınız - Nigar xanıma səmimi salam göndərirlər. Sizə sədaqətli olan V.İrmanov. 31 mart 1920-ci il, Kutaisi şəhəri".

Zəngin bir ömür tarixçəsinə malik general Ə.Şıxlınski millətin başını ucaldan şəxsiyyətlərdəndir. 1920-ci il avqust ayının 1-də V.İ.Leninə yazdığı məktubda "Şıxlınski Nikolay ordusunda "artilleriyanın Allahı sayılırdı, "onlar hərbi mütəxəssislər olmaq etibarı ilə əvəzsizdirlər", deyən N.Nərimanov qətiyyən mübaliğəyə yol vermirdi. General Əliağa Şıxlınski nəinki döyüş əməliyyatlarında, həmçinin nəzəri baxımdan artilleriyanın Allahı idi. Onun 1910-cu ildə Peterburq yaxınlığında Luqa şəhərində V.M.Kuroçkinin yeni mətbəəsində çapdan çıxmış "Səhra toplarının cəbhədə işlədilməsi" adlı kitabı minlərlə artilleriyaçının yetişdirilməsində əvəzsiz mənbə olmaqla yanaşı, bu elm sahəsində çox yüksək elmi dəyərə malik bir əsərdir. Belə ki, Əliağa Şıxlinski artilleriya tarixində ilk dəfə gözlə görünməyən hədəfə toplardan atəş açmaq texnikasını işləyib hazırlamış və onların təkmilləşdirilməsi işinə yeniliklər gətirmişdir. Ömrünün ahıl çağlarında Bakı qarnizonunun hərbi elmi cəmiyyətinin sədr müavini işləyib. "Səhra toplarının cəbhədə işlədilməsi" adlı artilleriyaçı kadrların hazırlanmasında dəyərli mənbə olan əsəri, eləcə də "Gələcək müharibədə toplar", "Topların dağlıq yerlərdə atəş xüsusiyyəti haqqında", "Alay topları haqqında" və s. hərbi elm üçün böyük əhəmiyyəti olan silsilə mühazirələr oxumuşdur. Artilleriya atəşinin aparılmasında məşhur "Şıxlınski üçbucağı"nın böyük rolu dünyanın bir sıra ölkələrinin tanınmış hərbi mütəxəssisləri tərəfindən etiraf edilmişdir. Belə ki, "Şıxlınski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyalarında da böyük şöhrət qazanmışdır. "Üçbucağın ətraflı şərhi və yazılışı" ilk dəfə 1912-ci ildə çap olunmuşdur. O, həmçinin hava hədəflərini vurmaq üçün atəş qaydalarının hazırlanması, alay və batalyon toplarının yaradılması kimi gərəkli hərbi ideyaların müəllifi idi. Əliağa Şıxlınski həmçinin "Rusca-azərbaycanca qısa hərbi lüğətin ilk yaradıcısıdır. 1926-cı ildə "Azərbayan hərbi redaksiyasında nəşr edilmiş lüğət doğma dilimizdə hərbi nizamnamələrin hazırlanmasında, hərbi elmi ədəbiyyatın tərcüməsində xüsusi rol oynayıb.

Əliağa Şıxlinskinin öz hərbi və bədii əsərlərini sadə, oxunaqlı dildə yazmasını onun çoxsahəli istedadının başlıca xüsusiyətlərindən hesab edən görkəmli Azərbaycan filosofu Heydər Hüseynov EA-nın "Xəbərlər məcmuəsi"nin 8-ci sayında 1945-ci ildə yazırdı: "Əliağa Şıxlinski dünyada şöhrət qazanmış rus topçuluq elmi sahəsində kəşflərlə tanış olmaqla yanaşı, dil və ədəbiyyat məsələləri ilə də yaxından məşğul olurdu. O, Azərbaycan dilini təkmil bilirdi. İslah ifadə quruluşu, yeni söz yaradıcılığı ilə ciddi məşğul olmuşdur".

Əliağa Şıxlinski öz xatirələrini Heydər Hüseynovun məsləhətilə qələmə almışdır.

Əliağa Şıxlinskinin atası Şıxlinskilər nəslində ilk savadlı adam İsmayıl ağa olub. O, hərbi işə də meyl göstərmiş, süvari dəstəsinin tərkibinə daxil edilmişdi. 1804-cü ildə Qazax-Dilican yolu üstündə şahzadə Abbas Mirzənin qoşunlarını məğlub edən süvari dəstəsinin üzvlərindən biri olması dediklərimizə əyani sübutdur. Məhz atasının yolu ilə gedən Əliağa Şıxlinskilər nəsilində Avropada təhsil alan ilk şəxs olub və hərb sənətində ondan neçə mərtəbələrlə yüksəklərə ucalıb. Yeri gəlmişkən, Əliağa Şıxlınskinin qardaşı da süvari zabiti adı alıb.

Şıxlinskilər nəslinin məlum olan ən birinci nümayəndəsi Ağdodaq Məmmədağa 16-cı əsrdə Qazax qəzasında ad çıxarmış şəxs imiş. Ulu babalarından Əli Qazax oğlu çox dəli-



dolu, igid bir adam olub.

Əliağa Şıxlinski Molla Vəli Vidadinin nəvəsi idi. Şıxlinskilər nəslindən çıxmış başqa məşhur şairlərdən biri aşıq şeri və klassik üslubda yazıb-yaratmış Kazım ağa Salikdir. Şəcərədən gələn bu fitri istedad nəslin bir çox başqa nümayəndələrinin, o cümlədən onun özünə də təsirsiz qalmamışdı. Əliağa Şıxlinski ara-sıra yaradıcılıqla məşğul olmuş, gözəl şerlər yazmışdır.

Onun həyat yoldaşına, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanıma yazdığı "Ey sevdiyim, ey dilruba" şeri doğrudan da, istedad sahibi olduğunu göstərir.

*Ey sevdiyim, ey dilruba, Səbrim, qərarımsan mənim*
*Səd mərhaba, səd mərhaba*
*Nə türfə yarımsan mənim...*
*Mənim baharda bülbülüm,*
*Mənim qızılca sünbülüm Gülşəndələrdə zərif gülüm Bağlarda barımsan mənim.*

Nigar xanım Əliağa Şıxlinski anası Vidadinin nəvəsi Şah Yəmən xanımın əmisi oğlu Hüseyn Əfəndi Qayıbzadənin qızıdır. Əliağa Şıxlinski təhsilini Tiflisdə sonra qayınatası olan Hüseyn Əfəndinin yanında almışdı. O, Nigar xanımla 1909-cu il oktyabr ayının 27-də ailə həyatı qurub. Nigar xanım 1931-ci il 15 avqustda vəfat edib.

Klassik ədəbiyyatı gözəl bilən Əliağa Şıxlinski həm də öz gənc müasirləri S.Vurğun, O.Sarıvəllinin şerlərini rus dilinə tərcümə etmişdir. S.Vurğun "Böyük ədib", "Sədaqət", O.Sarıvəllinin C.Cabbarlının ölümünə həsr etdiyi "Yaşar şerləri" tərcüməsi arxivində qalıb. C.Cabbarlı yaradıcılığına onun xüsusi məhəbbəti olub. Bunu "Zabitin yaddaşı" dəftərçəsindəki qeydlərdən aydın görmək olar.

Ədəbiyyatla yanaşı, digər elm sahələrinə də xüsusi maraq göstərən Əliağa Şıxlinski yüksək intellekt sahibi, əsl ziyalı idi. Onun son dərəcə gözəl dildə və üslubda yazılmış "Xatirələrim" əsəri həm Azərbaycan hərb tarixinin çox mühüm bir dövrünün öyrənilməsi baxımından son dərəcə böyük əhəmiyyətə malikdir, həm də bir sənət əsəri kimi qiymətlidir. "Xatirələrim" SSRİ EA-nın Azərbaycan filialı tərəfindən rus və Azərbaycan dillərində 1944-cü ildə çap olunmuşdur. Əliağa Şıxlinski dövrünün Səməd bəy kimi hərbi dühalarının və bir sıra digər istedadlı sərkərdələrinin ilk portret cizgilərini yaratdığı xatirələrini görkəmli filosof H.Hüseynovun məsləhəti və onun birbaşa köməyi ilə ömrünün ahıl çağında qələmə almışdır. Son nəfəsinə qədər vətənə, millətə sədaqətlə xidmət göstərmiş bu nadir şəxsiyyətin həmin əsəri onun Azərbaycana sonuncu övladlıq borcu olmuşdur. Hərbi memuarlar sırasında layiqli yer tutan "Xatirələrim" hələ Azərbaycanın neçə hərbçi nəslinin yetişdirilməsində əvəzsiz mənbələrdən biri olacaq, türk balaları üçün mərdlik, kişilik məktəbinin əbədi kitabı kimi yaşayacaqdır.

Az.FK Ə.Şıxlinskinin kimliyini, hansı imkanlara malik olmasını yaxşı bildiyi üçün onu həbsə almaqla öz nəzarəti altında saxlamağa, beləliklə də bolşevik hərbi işinin dirçəldilməsində iştiraka məcbur etməyə çalışırdı. Bunun ən yaxşı və asan vasitələritndən biri sözsüz ki, keçmiş çar və milli Azərbaycan ordusu generalının günahkar olduğunu sübuta yetirmək idi.

FK-nın növbəti dindirməsində artıq ona qarşı irəli sürülən ittihamların konkretləşdirilməsinin müşahidə olunması bu sifarişlə bağlı idi. Onun Gəncə üsyanının təşkilində müəyyən rol oynadığına şübhə etməyən müstəntiq bu fəaliyyətin nədən ibarət olduğunu müəyyənləşdirməyə çalışırdı: "- Sizin soyadlınız Cavan Şıxlinski ilə münasibətəlriniz necədir?

Cavab: Çox mehriban, qohumluq duyğularından başqa bizim yoldaşlıq münasibətlərimiz də olub. Belə ki, cavanlıq illərində bir yerdə xidmət etmişik, bir komandada. Mən Yapon müharibəsində və Çin yürüşündə olarkən məzuniyyətə gələndə həmişə elə məqamlar seçirdim ki, məzuniyyət vaxtı Cavanla görüşüm. 1918-ci ildə təqribən fevralda Cavanla birlikdə Azərbaycanda xidmətə başladıq.

Sual: Siz Cavandan və onun vasitəsilə neçə məktub almısınız?

Cavab: İki məktub almışam. Birini diviziyanın böyük adyutantı Əfəndiyev vasitəsilə, ikincini qol çəkməklə. Biri məndə indi kitelimin cibində qalır.

Sual: Bu məktublarda nə barədə məlumat verilirdi?

Cavab: Onların məzmunu ancaq ailə münasibətlərinə aid idi. Xidmətə aid heç bir ciddi şey yox idi.

Sual: Cavan tərəfindən çətin vəziyyətə düşdüyü və şimalla bağlı sizə ciddi suallarla müraciət etdiyi ifadə edilmirdi ki?

Cavab: Cavan möhkəm adamdır, ideyasına inamlı və iradəildir və həmişə öz sərbəsliyini nümayiş etdirməyə çalışıb. Ancaq mənim dəllillərimlə də həmişə hesablaşıb və onlara böyük əhəmiyyət verib.

Sual: Hansı məsələlərlə balğı o sizə məsləhət üçün müraciət edib, təsadüfü, yoxsa, özünün şəxsi?

Cavab: Konkret halları xatırlamıram. Ancaq əksər hallarda taktiki məsələlərlə bağlı və s. Yaxud hansısa, göstəriş alırdı, hərdən gəlib mənimlə necə hərəkət etmək barədə bir stəkan çay süfrəsi arxasında məsləhətləşirdi. Şəxsi məsələlərlə bağlı onunla tez-tez məsləhətləşirdik.

Sual: Çevrilişdən sonra siyasi məsələlərlə bağlı danışıqlar olurdumu?

Cavab: Çevrilişdən sonra nə şəxsi, nə də başqa cür Cavanla siyasi məsələlərlə bağlı söhbətimiz olmayıb. Ancaq bir dəfə Çingiz Cavanı telefonla yanına çağırdı və dedi ki, 1-ci diviziyada döyüş şəraiti yaranıb və buna görə də onu döyüş sahəsinə rəis təyin etmək lazımdır. Bununla əlaqədar Çingiz Cavanın fikrini də soruşmuşdu ki, o, yeni hakimiyyətdə xidmət etmək istəyrimi. Cavan soruşmuşdu, Əliağanın özü yerində qalırmı. Çigiz tərəfindən Əliağanın fikrindən asılı olmayaraq bu məsələ ilə bağlı cavab gözlənildiyi üçün Cavan müsbət cavab vermişdi. Qeyd etmək lazımdır ki, mən istəməzdim ki, təcrübəli böyük zabitlər kənarda qalsınlar, yaxşı nə varsa saxlamaq lazımdır. Mən qəti əminəm ki, sovet hakimiyyətinə uyğunlaşacaq və əla döyüş materialı verəcək və yeni quruluşa sadiq olacaq.

Sual: Cavan sizə üsyan məsələsi ilə əlaqədar müraciət etməmişdi ki?

Cavab: Güman edirəm ki, Cavan bu barədə mənə heç vaxt xəbər verməzdi. Birincisi ona görə ki, mənim xidmətə münasibətimi bilir, ikincisi məni qatmamaq üçün. Gəncədə üsyan olduğu barədə mən heç nə bilmirdim.

Onun günahının sübuta yetirilməsi üçün Azərbaycan ordusunun həmin dövrdə həbs edilmiş başqa bir yüksək rütbəli zabiti, casusluqda ittiham olunan İlyas Əliqulu oğlu Şahtaxtınski müstəntiq Qubin tərəfindən dindirilir. Həmin dindirilmə protokolundan çıxarış (1920-ci il 29 iyun) eyni qovluqda saxlanılan digər istintaq işinə daxil edilmişdir. İ.Şahtaxtınskinin ifadəsindən bəzi məqamları nəzərinizə çatdırırıq: "General Ə.Şıxlinskini mən Azərbaycan ordusunun qərargahında xidmətdən tanıyıram. Onun sovet hakimiyyətinə qarşı münasibəti ilə əlaqədar deyə bilər ki, o azacıq da olsa razı deyildi, əksinə həmişə köhnə general kimi qırmızı ordunun hərdən məruz qaldığı məğlubiyyətlərə sevinirdi. Könüllü orduya qarşı Ə.Şıxlinski çox mehriban və nazakətli idi. Könüllü ordunun nümayəndələrinə qarşı bomba atılanda Ə.Şıxlinski tutulmuş bolşevik terrorçuları ilə öz yavəri kapitan Çaevskiyə məmuniyyətlə bildirmişdi. "Siz eşitmisinizmi həmin yaramazları artıq həbs ediblər. bu sözləri mən özüm eşitmişdim. Sonra qırmızı ordu Dərbənddə olarkən Ə.Şıxlınski Azərbaycan ordusu qərargahının qeyi-nizami rotasının komandiri Kalımova əmr etmişdi ki, silahlarını təmizləyib, daim Qərargahda olsunlar. Belə əmrin səbəbini onunla izah etmişdi ki, qırmızı ordu yaxınlaşır, buna görə də bolşeviklərin Bakıda çıxışları ola bilər. Bu il aprel ayının 15-də (təqribən) mən Şuşaya Qarabağ qoşunlarının qərargahına ezam olundum. Bu vaxt hərbi nazirin vəzifəsini müvəqqəti icra edən Ə.Şıxlınskidən general Səlimovun adına vəziyyətin ciddiliyi nəzərə alınaraq, Quba alyanın batalyonunun, bütün Tatar atlı alayının bolşeviklərlə mübarizə üçün göndərilməsi barədə şifrteleqram gəldi. Bu telqramı mən oxudum. General Səlimov cavab teleqramı göndərdi ki, Azərbaycan iki cəbhədə davam gətirə bilməz. General Şıxlınskinin sovet hakimiyyəti dövründəki xidməti işləri barədə mən heç nə deyə bilmərəm, çünki həmin vaxtı həbsdə olmuşam".

Növbəti dindirmələrdən biri:

Sual: Nə üçün Cavan Şıxlinski məhz Əliağa Şıxlinskiyə müraciət edirdi?

Cavab: Ona görə ki, o, Əliağa Şıxlınskini bütün həyati məsələlərdə yüksək nüfuz sahibi sayırdı və ona müraciət edirdi. Sual: Cavan Şıxlinski Əliağa Şıxlinski ilə Yelizavetpolda sovet hakimiyyəti əleyhinə qarşı üsyanın təşkili və ona rəhbərlik barədə məsləhətləşirdimi?

Cavab: Əgər Cavan Şıxlinski üsyanın təşkilində iştirak etmişdisə, o, Əliağa Şıxlınski ilə məsləhətləşməli idi. Üsyanda iştirak edənə qədər onu necə təşkil etmək barədə.

Bütün bu araşdırmalar və dindirmələrdən sonra 1920-ci il iyun ayının 29-da artıq 11-ci ordu xüsusi şöbəsinin baş hərbi müstəntiqi olan Qubin tərəfindən qərar verilir:

"Az.SSR hərbi-dəniz komissarının müavini Əliağa Şıxlinskinin əksinqilabda ittiham olunması ilə bağlı işə baxaraq, aşkar etdim:

Keçmiş hərbi nazirin müavini tam artilleriya generalı Əliağa Şıxlinski özünün əksinqilabi hökumətinin müdafiəsi, RSFSR qırmızı qoşunlarının Azərbaycan ərazisinə buraxılmaması üçün tədbirlər görmüş... özünün xidməti vəziyyətindən istifadə edərək, dəfələrlə birbaşa teleqraf xətti və telefonla qohumu Az.SSR 1-ci piyada diviziyasının keçmiş komandiri general Cavan Şıxlınski ilə nəzarətsiz danışıqlar aparmışdır (sonuncu dəfə 24 mayda, üsyana bir gün qalmış). Bütün ciddi məsələlərdə dayısı Əliağa Şıxlinski ilə məsləhətləşən və onu yüksək nufuz sahibi hesab edən Cavan Şıxlinski Gəncədə sovet hakimiyyətinə qarşı çıxışların təşkilatçıları və rəhbərlərindən biri olmuşdur. C.Şıxlinskiyə məsləhətlər verməsi və onu yönəltməsi halı Əliağa Şıxlınskinin üsyanda iştirak etdiyini söyləməyə tam əsas verir. Könüllü ordunun güllələnmiş polkovniki Qluxarevin Ə.Şıxlinskinin sovet hökumətinin devrilməsini nəzərdə tutan tezliklə yaxşı günlərin gələcəyinə ümid etməsi barədəki ifadəsi Ə.Şıxlinskinin sovet hakimiyyəti əleyhinə çıxış etməyə hazırlaşması faktını təsdiq edir...

Müttəhimin hərbi texnika (artilleriya) sahəsində zəngin biliyə malik olmasını və Qafqaz İnqilabi cəbhəsinin hərbi inqilabi şurasının üzvü Y.Orconikidzenin təklifini nəzərə alaraq, qərar gəldim: Ə.Şıxlinskini işinə baxılmaq üçün ÜFK-ya göndərmək. Qərar təsdiq edilir. Xüsusi şöbənin rəisi Pankratov, 29 iyun 1920-ci il.

Əliağa Şıxlinski Moskvaya çatdıqdan sonra onun şəxsi əşyalarını yoxlayan ÜFK Xüsusi şöbəsinin komendantlığı 1920-ci il 18 avqustda 2462 №-li qəbz tərtib edir: "Əliağa İsmayıl oğlu Şıxlınskinin üstündən səksən iki min beş yüz rubl, 14 nikolay rublu, cib saatı metal qolbağla, bir soyadlı möhür, bıçaq, dəri pulqabı, dəri bumajnik, 10 ədəd açar çıxdı".

Əliağa Şıxlinski bir müddət Moskvada Ali topçuluq məktəbində müəllim işlədikdən sonra Peterburqda topçuluq Akademiyasında mühazirələr oxuyur. Bir il Rusiyada yaşadıqdan sonra N.Nərimanovun xahişi ilə yenidən Bakıya qayıtmış, Bakı qarnizonunun hərbi-elmi bilik cəmiyyətində topçuluqdan mühazirələr oxumuşdur.

Ə.Şıxlinski 1943-cü ildə vəfat etdi. Dünyadan sonsuz köçməsinə baxmayaraq, bu gün onun qoyub getdiyi zəngin hərbi elmi irs vətənin neçə gənc hərbçilər nəslinin yetişməsində əvəzsiz mənbədir. Bu gün Azərbaycan ordusunun hərbi və döyüş qabiliyyətini durmadan artırmağı, millətə təmənnasız xidməti, mənəvi təmizliyini qorumağı öz müqəddəs vəzifəsi sayan hər bir əsgər və zabit onun övladı, davamçısı adlanmağa layiqdir.

Moskvaya gedən Əliağa Şıxlinski ona verilmiş Sorğu vərəqində "hərbi işə münasibəti qrafasında yazıb: "bütün ömrü boyu hərbi xidmətdə olub - könüllü şəkildə". Bu onun bir insan kimi öz həyatının mənasını təşkil edən başlıca amili müəyyənləşdirməsi, keçdiyi ömür yolunu qiymətləndirməsi idi. Bəli, Ə.Şıxlinski bütün ömrü boyu hərbi xidmətdə oldu, çar ordusunda qulluq etdiyi vaxtda da, sonra müstəqil Azərbaycanda hərbi işin möhkəm təməlinin qoyulmasında bütün varlığı ilə çalışında da, nəhayət sovet rejiminin ciddi nəzarəti və təzyiqi altında işləyəndə də əsl hərbçi kimi qaldı. Əsgəri xidmətdən tam artilleriya generalı rütbəsinə qədər yüksəlmiş bu insanın həyatında, taleyində çox şey dəyişdi, yalnız xidməti borca münasibəti, dəmir hərbi nizam-intizamı dəyişmədi. Əsgər Əliağa ilə general Əliağa arasındakı fərq də yalnız daşıdıqları çindən ibarət oldu.

***Lətif Şüküroğlu***
***Tarix üzrə fəlsəfə doktoru***

# Sülh Əsgərlərinin Beynəlxalq Günü qeyd edilib

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Cenevrədə Sülh Əsgərləri Beynəlxalq Assosiasiyasının həyata keçirdiyi Sülh Əsgərlərinin Beynəlxalq Günü tədbirinə qatılıb.

Mayın 31-də BMT-nin Cenevrə bölməsində Millətlər Sarayında təşkilatın baş katibinin iştirakı ilə keçirilmiş tədbirdə BMT rəsmiləri, müxtəlif ölkələrin İsveçrədəki səfirləri, daimi missiyaların nümayəndələri, jurnalistlər, QHT üzvləri iştirak ediblər.

Tədbirin keçirilməsində əsas məqsəd müxtəlif nümayəndə heyətlərini bir araya gətirməklə beynəlxalq sülhün qorunmasına, xalqlar arasında münasibətlərin qarşılıqlı anlaşma və əməkdaşlıq çərçivəsində qurulmasına dəstək olmaqdır.

İştirakçılar Sülh Əsgərləri Beynəlxalq Assosiasiyasının təqdimatı ilə tanış olub, təşkilatın fəaliyyəti və həyata keçirdiyi sülhyönümlü layihələr çərçivəsində gördüyü işlər barədə qonaqlara məlumat verilib. Sonra iştirakçılar beynəlxalq sülhün təbliği və təşviqi istiqamətində müxtəlif təqdimatlarla tanış edilib, mühazirələr dinləyib, fikir mübadiləsi aparıblar.





Tədbirdə iştirak edən müxtəlif nümayəndə heyətləri Nobel sülh mükafatı yubiley və sülh xatirə medalları ilə təltif ediliblər. Sülh Əsgərlərinin Beynəlxalq Günü tədbirində Azərbaycanı təmsil edən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Nobel sülh mükafatı yubiley medalı ilə təltif edilib.

Beynəlxalq Sülh Əsgərləri Assosiasiyası bu tədbiri 2003-cü ildən BMT ilə birgə əməkdaşlıq çərçivəsində keçirir.

# Odlu səngərlərdə mərd döyüşçü kimi vuruşdu...



***"Əvvəla salam. Əziz anam, necəsən? Özünü necə hiss edirsən? Təki yaxşı ol. Mən sağ-salamatam. Ana, mən 9 aydan çoxdur Qarabağdayam. Burada çox şey görmüşəm. Mən ölümlə çox rastlaşmışam burada. Ancaq Allah saxlayanda saxlayır. Mən ölümdən qorxmuram, ölənlərdən nə artığam, nə də ki, əskik...".***

Bu cümlələr şəhid hərbi qulluqçumuz əsgər Rəhmanov İlqar Oqtay oğlunun ön cəbhədən ailəsinə göndərdiyi son məktublardan birində yazılıb. Od-alovlu səngərdə valideynini də düşünən, ona öz duyğularını məktubunda bölüşən İlqar, müharibə sınaqlarına da toxunub, ölümdən qorxmadığını bir cəsur döyüşçü qətiyyəti ilə qeyd edib.

O, 1973-cü il iyulun 29-da Bakı şəhərində anadan olub. Rəhmanovlar ailəsində üç oğul dünyaya göz açıb, İlqar onların ortancılıdır. İlqar Bakı şəhəri Nərimanov rayonundakı 45 saylı, daha sonra Sabunçu rayonu Bakıxanov qəsəbəsindəki 252 saylı ümumtəhsil məktəblərində orta təhsil alıb. 1988-1991-ci illərdə paytaxtın Nərimanov rayonundakı 10 saylı texniki-peşə məktəbində dülgər (inşaatçı) ixtisasına yiyələnib. Ailə üzvlərinin dediyinə görə, İlqar qayğıkeş, ailəcanlı, zəhmətkeş, böyüklərə hörmətlə yanaşan, heç kimdən xeyirxahlığını əsirgəməyən gənc olub. Şəhid ailəsinin ünvanını axtararkən görüşdüyüm qonşuları da onu xoş sözlərlə xatırladılar, İlqarın ciddiliyini, ədəb-ərkanını xüsusi vurğuladılar. İ.Rəhmanov hərbi xidmətədək Keşlə qəsəbəsindəki mebel fabrikində işləyib, öz ixtisası üzrə müəyyən iş səriştəsi qazanmağa səy göstərib. Bununla yanaşı, İlqar "Məhsul" İdman Cəmiyyətində cüdo idman növü üzrə məşqlərə gedib. İştirak etdiyi müxtəlif yarışlarda idmançı bacarığı və qətiyyəti ilə fərqlənib, qalib yerlərə sahiblənərək təltif olunub. O, həmçinin, avtomobil sürməyə həvəs göstərib, imtahan verərək sürücülük vəsiqəsi də alıb.

İ.Rəhmanov 1992-ci ilin fevral ayında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına həqiqi hərbi xidmətə qəbul olunub. Ölkəmiz üçün çətin və gərgin olan həmin dövrdə Daxili Qoşunların formalaşması həyata keçirilirdi. SSRİ dövründən mövcud olmuş və respublikamızın sərəncamına keçmiş hərbi hissələrlə yanaşı, yeni hərbi hissələr də yaradılırdı. 1992-ci ilin mart ayının 12-dən isə Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edirdi. Əsgər İ.Rəhmanov o vaxt Bakının Nərimanov rayonundakı "N" saylı hərbi hissədə hərbi xidmətə başlayıb. Bu hərbi hissədə hərbi andı qəbul edib. Bir neçə aydan sonra bu hərbi hissədən Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərilib. Orada çox qısa vaxt hərbi xidmət keçdikdən sonra 1992-ci ilin avqust ayından ön cəbhədə, "N" saylı hərbi hissənin tərkibində döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Onun döyüş yolu Ağdam-Ağdərə cəbhə bölgəsindən keçib. Öncə Ağdamın Seyidli kəndində yerləşdirilən şəxsi heyətin sıralarında olub. Buradan düşmənlə təmas xəttindəki mövqelərimizə göndərilərək torpaqlarımızın müdafiəsində dayanıb, Fərrux yüksəkliyi istiqamətindəki postlarda, habelə Manikli (hazırda Məlikli - Y.A.), Canyataq, Gülyataq, Qalayçılar, Boyəhmədli, Papravənd kəndlərinin ərazisində və ətraf yüksəkliklərdə düşmənlə cəsarətlə vuruşub. Bu döyüşlərdə neçə-neçə erməni işğalçısını məhv edib. Böyük qardaşı Şahinin milli ordu sıralarında döyüşlərdə iştirak etməsi və ağır yaralanması onun üçün Vətən naminə bir fədakarlıq örnəyi idi. Ailəsinə yazdığı məktublardan birində qardaşının vətənpərvərliyindən ruhlandığını qeyd edib və özünün də döyüşçü olması ilə valideynlərinin qürur duymasını istəyib.



Qələbə günümüzü görməyi və doğmalarına qovuşmağı arzulayırdı. Müharibədə nə qədər sarsılsa da, inamını itirməyib. Bunu onun məktublarından duymaq olur. Döyüşçü üçün Vətən sevgisi, əqidəsinə inamı, qorxmazlıq, doğmalarının xeyir-duası və məhəbbəti çox mühüm amillərdir. İlqar son nəfəsinədək döyüş tapşırıqlarını əzmlə yerinə yetirib. Onun son döyüşü 1993-cü il iyun ayının 21-də, Ağdamın Papravənd kəndi (hazırda işğal altındadır -Y.A.) ərazisində olub. Düşmənin hücumunun qarşısını alarkən döyüşdüyü postda ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. 29 iyun 1993-cü ildə tərtib olunmuş ölüm haqqında şəhadətnamədə İlqarın güllə yarasından həlak olduğu yazılıb. Ailə üzvlərinin verdikləri məlumata görə isə İlqar döyüşdüyü post düşmən tərəfindən minaatanlardan atəşə tutulub və o, ağır qəlpə yarasından həlak olub. Bunu ailəyə ön cəbhədən cənazəni gətirmiş hərbi qulluqçular bildiriblər.

Şəhid hərbi qulluqçumuz paytaxtın Bakıxanov qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunub. Onun haqqında dövrü mətbuatda yazı dərc edilib. Qeyd edim ki, bu günədək bəzi sənədlərdə şəhidin soyadı yanlış olaraq Rəhimov göstərilib. Ailənin bununla bağlı bildirdiyi irad haqlıdır. Rəhmanovlar ailəsinə dövlətimiz tərəfindən müvafiq müavinət təyin olunub.

İlqarın atası 2012-ci ildə vəfat edib. Anası Nəsibə xanım və qardaşları Şahin və Vüqar bu ötən illəri onun yoxluğunun ağrı-acısı ilə yaşayıblar, zaman keçsə də, doğma adamın, özü də müharibədə canını qurban vermiş bir gəncin itkisi ilə barışmaq yenə də çox çətindir. Ancaq heç bir müharibə itkisiz olmur. Bu da təkzibolunmaz bir həqiqətdir.

Rəhmanovlar ailəsində İlqarın adını qardaşı oğlu daşıyır. İlqar tək bir ailənin deyil, bütövlükdə xalqımızın fəxr etdiyi oğullardan biri kimi həmişə ehtiramla anılacaq.

***Allah rəhmət eləsin!***

*Yalçın Abbasov*
*DİN-in Daxili Qoşunlarının*
*Veteranlar Şurasının katibi*

AZƏRBAYCAN VETERANI

# Azərbaycan Ordusu öz müqəddəs missiyasını şərəflə yerinə yetirir



İyunun 26-da Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissədə Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə bayram tədbiri keçirilib. Əvvəlcə ulu öndər Heydər Əliyevin hərbi hissənin həyətində ucaldılmış büstü önünə gül dəstələri düzülüb.

AZƏRTAC xəbər verir ki, tədbir ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Azərbaycanın dövlət himni səsləndirilib.

Tədbirdə Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrin 100-cü ildönümü münasibətilə şəxsi heyətə ünvanladığı məktubu oxunub, xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması ilə bağlı əmri elan edilib.

Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğunda əsasını qoyduğu strategiya onun siyasi kursunun layiqli davamçısı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərinin xüsusi diqqət və qayğısı sayəsində son illər silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, döyüş və mənəvi-psixoloji hazırlığının gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Gündən-günə güclənən, qüdrətlənən Azərbaycan Ordusu dövlətimizin, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanaraq, öz müqəddəs missiyasını şərəflə yerinə yetirir. Aprel döyüşləri və nəhayət, bu il Naxçıvanda Günnüt zəfəri Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqidir.

Digər çıxış edənlər bayram münasibətilə hərbi hissənin şəxsi heyətini təbrik edib, onlara çətin və şərəfli işlərində uğurlar arzulayıblar.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Sumqayıt Şəhər İcra Hakimiyyətinin fəxri fərmanları təqdim olunub. Tədbir Sumqayıt Regional Mədəniyyət İdarəsinin təşkil etdiyi geniş konsert proqramı ilə davam edib.

# Azərbaycan Ordusu müstəqilliyimizin, dövlətçiliyimizin qarantına çevrilib



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə Abşeron Rayon İcra Hakimiyyətinin "N" saylı hərbi hissədə keçirdiyi tədbirdə rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının rəhbərləri iştirak ediblər. Əvvəlcə qonaqlar ulu öndər Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzüblər. Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümü münasibətilə şəxsi heyətə ünvanladığı məktubu oxunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı İradə Gülməmmədova Silahlı Qüvvələrin inkişafı tarixində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətindən danışıb.

Qeyd olunub ki, Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən iyunun 26-sı Silahlı Qüvvələr Günü Azərbaycanda ümumxalq bayramı kimi qeyd edilir. Ulu Öndərin siyasi kursu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentin orduya diqqət və qayğının nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri say tərkibi, hərbi-texniki vəziyyəti, hazırlığı və silahlanma keyfiyyətinə görə regionun digər ölkələrindən, xüsusilə düşmən Ermənistandan qat-qat yüksəkdir. Ordu quruculuğuna yönəldilən ümumi büdcə miqdarına görə Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir. Silahlı Qüvvələrimiz Cənubi Qafqazda ən güclü və hazırlıqlı ordu hesab olunur.

Qeyd olunub ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi dövlətçilik və ordu tariximizin yenidən öyrənilməsi və təbliği məsələsini gündəmə gətirib. "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalının təsis edilməsi hərbçilərimizə və ordumuza göstərilən diqqətə daha bir nümunədir. Bu gün Azərbaycan Ordusu müstəqilliyimizin, dövlətçiliyimizin qarantına çevrilib.

Xatırladılıb ki, 2016-ci ilin Aprel döyüşlərində Azərbaycan Ordusu gücünü bir daha göstərib.

Tədbirdə çıxış edən hərbi hissənin komandanı ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlərdən danışıb.

Sonra xidmətdə fərqlənən əsgər və zabitlərə rayon rəhbəri tərəfindən qiymətli hədiyyələr təqdim olunub.

Tədbir Abşeron Rayon Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivlərinin maraqlı musiqi nömrələri ilə davam edib. Gənc müğənnilərin ifasında xalq və bəstəkar mahnıları, rayon məktəblilərinin ifasında Vətənə və Orduya həsr olunmuş şeirlər, bədii kompozisiya alqışlarla qarşılanıb.

# Peşə Reabilitasiya Mərkəzində Milli Qəhrəman Asif Məhərrəmov yad edilib



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 nömrəli Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzində Milli Qəhrəman Asif Məhərrəmova həsr olunmuş tədbir keçirilib.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "Qəhrəmanlarımızı tanıyaq və tanıdaq!" layihəsi çərçivəsində "Arabaçı Əlillər Şəbəkəsi" İctimai Birliyi tərəfindən təşkil edilən tədbirdə ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın dövlət himni səslənib.

Əlil ictimai birliklərinin, Qarabağ müharibəsi veteranlarının da iştirak etdiyi tədbirdə Milli Qəhrəman Asif Məhərrəmovun həyatı və keçdiyi şərəfli döyüş yolu barədə məlumat verilib.

"Arabaçı Əlillər Şəbəkəsi" İctimai Birliyinin sədri İlham Məhərrəmov layihənin Milli Qəhrəmanların daha yaxından tanıdılması və eyni zamanda, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə töhfə vermək məqsədinə xidmət etdiyini bildirib. O layihə çərçivəsində Mərkəzdə Milli Qəhrəmanlar Mübariz İbrahimov, Cavanşir Rəhimov, Çingiz Qurbanov, Sahil Məmmədov və digər Vətən müdafiəçiləri ilə bağlı tədbirlərin də təşkil olunacağını bildirib.



Tədbirdə Milli Qəhrəman Asif Məhərrəmov haqqında çəkilmiş film nümayiş olunub, vətənpərvərlik mahnıları səsləndirilib.

**Baş redaktor**
Ülvi İBRAHİMLİ

Məsul katib
Şəhla QARAYEVA

Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.
**Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti

"Azərbaycan Veteranı" qəzeti.
**VÖEN:** 1701285981
verilmə tarixi - 23.11.2011

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverockin küçəsi, 34
**Əlaqə telefonu:** 012 440-21-08
**e-mail:** az.veteran@mail.ru
**Dövlət qeydiyyat nömrəsi** - 3486
**Dövlət qeydiyyat tarixi** - 19.10.2011

Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.
Qiyməti 60 qəpik
Tiraj: 1290